# AzMİU-da "Riyaziyyat, mexanika və tətbiqlərinin müasir problemləri"nə həsr olunan beynəlxalq konfrans keçirilir

**İyunun 20-də Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), İstanbul Texniki Universiteti (İTU), Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun (RMİ) birgə təşkilatçılığı ilə "Riyaziyyat, mexanika və tətbiqlərinin müasir problemləri"nə (MPMMA 2024) həsr olunan beynəlxalq konfransın açılış mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, açılış nitqi ilə çıxış edən AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova beynəlxalq konfransın əhəmiyyətinə toxunub, fundamental elmlərə dair tədqiqatların AzMİU-da prioritet istiqamətlərdən olduğunu qeyd edib. Rektor bildirib ki, konfransa Azərbaycan və dünya alimləri tərəfindən böyük maraq var və bu platforma qlobal səviyyədə riyaziyyat, mexanika və tətbiqləri istiqamətində mövcud problemlərin aradan qaldırılması üçün mühüm əhəmiyyətə malikdir.

Professor Gülçöhrə Məmmədova eyni zamanda konfransın AzMİU, RMİ və İTU arasındakı uğurlu əməkdaşlığın bariz nümunəsi olduğunu və AzMİU-nun tədqiqatyönümlü universitetə çevrilmək hədəfinə sürətlə yaxınlaşdığını deyib. O qeyd edib ki, son dövrlər universitetdə həm mütəxəssis hazırlığı, həm də idarəetmə strukturlarının müasir tələblərə uyğun yeniləşdirilməsi istiqamətində ciddi islahatlar aparılıb. Bakalavriat və magistratura səviyyələrində bütün ixtisas və ixtisaslaşmaların hazırlıq proqramları modernləşdirilib, beynəlxalq əlaqələrin genişləndirilməsi və effektiv istifadəsi təhsilin metodikasına bir çox yeniliklər gətirib. Bunların nəticəsi olaraq mütəxəssis hazırlığının keyfiyyəti yüksəlib, universitetin məzunları əmək bazarında yüksək qiymətləndirilərək öz ixtisasları üzrə yaxşı işlərlə təmin olunublar.

Çıxışının sonunda həmtəşkilatçılara təşəkkür edən rektor dünya alimləri ilə birgə diskussiyaların aparılmasının elmin inkişafına mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib, konfransın işinə uğurlar arzulayıb.

Universitetin elm və innovasiyalar üzrə prorektoru professor Nigar Aslanovanın moderatorluğu ilə davam edən konfransda İTU-nun Şimali Kipr filialının rektoru professor Murat Sarı da çıxış edib. Plenar iclaslarda professor Məsud Əfəndiyev, mexanika və aerokosmik mühəndislik sahəsində tanınmış alim, İstanbul Ticarət Universitetinin professoru Abdulla Sofiyev, uzun müddət Avropa Riyaziyyatçılar Cəmiyyətinin sədri olan Pavel Eksner və digər alimlərin məruzələri dinlənilib.

Daha sonra konfrans işini plenar sessiya və seksiyalarla davam etdirib.

Azərbaycan.- 2024.- 21 iyun, № 127.- S.10.